# *Firuzə Məmmədlinin 80 yaşı*



*Firuzə MƏMMƏDLİ*

**QƏDR GECƏSİ**

Hamı eşidirdi deyən, bu gecə,
Məndim vaxt qapısın döyən bu gecə.
Haçandan yatmısan, oyan bu gecə, -
Oyan, bu gecənin xətrinə, oyan.

Göylər savab yağır, günaha batma,
Yatma, hurim, yatma, mələyim, yatma.
Bu gecə fürsətdi murada çatmaq, -
Oyan, gecələrin qədrinə oyan.

Bu qədr gecəsi qəlbə nur yağır,
Gör nə savab yağır, nə hüzur yağır.
Dur, atam balası, oyan, dur, yağır,
Yağan duaların sətrinə oyan.

**MƏN**

Od manqalda, nur kənarda
Get, taxtını qur kənarda.
Çək kibriti, dur kənarda,
Nəyinə gərək, yanıram!

Vaxtın pəhriz adamıyam,
Qoşma, təcnis adamıyam.
Mən də məclis adamıyam,
Bir azca da söz qanıram.

Qəmə kəm gəlir taleyim,
Döyüş səngəri – taleyim.
Nə bir dincələr taleyim,
Nə iş-gücdən usanıram.

Mənə izin verib Tanrı,
Sözün düzün verib Tanrı.
Səbri uzun verib Tanrı,
Hərdən daş, hərdən xamıram.

Vaxt ölçüsü, bəxt azıyam,
Sağa-sola – riyaziyəm.
Öz qışımın ayazıyam,
Sözdə istim var, sanıram.

Nə hiyləyəm, nə kələyəm,
Yaxşı-yamana ələyəm.
Allaha şükür beləyəm,
Kürəm, Arazam, Samuram.

## BİLMİRƏM

Bu gün sizdən uzaqdayam bir az da,
Gah səmimi, gah saxtayam bir az da.
Həm istiyəm, həm şaxtayam bir az da,
Bir kimsəyə yaxınlaşa bilmirəm.

Deyən məni addım-addım üzür vaxt,
Üz-gözümdə – çək-çevirin izi vaxt.
Allah, hara sürükləyir bizi vaxt? –
Qoşulub da axınlaşa bilmirəm.

Gah səbrimi çırtlayıram tum kimi,
Gah vaxtımı sovururam qum kimi.
Həyat məni əcəb yapdı mum kimi, -
Bir kimsəyə paxıllaşa bilmirəm.

Dünənlərdə düşüb qaldım, olmaya,
Mütiliyə bişib qaldım, olmaya?

Uzaqdakı işıq qaldım, olmaya? –
Dastanlaşa, nağıllaşa bilmirəm.

Səs eşitdim, kimsə məni çağırdı,
Baxıb gördüm, sağım-solum çığırdı.
Çəkəmmədi, yer-göy dedi: «Ağırdı»,
Çəkimdən ki ağırlaşa bilmirəm.

Vaxtı verən, baxtı verən Tanrıdır,
Bu gün onun saatıdır, anıdır.
Bəri durum, bəlkə məni tanıdı,
Görüşməmiş sağollaşa bilmirəm.

## MƏNİ

Bir az bu xəbərdən gözüm açıldı,
Dərdimə, sərimə sözüm açıldı.
Canımda bir təzə dözüm açıldı,
Sürüdü zamandan zamana məni.

Ağrıdım dörd yana, bildim-bilmədim,
Çaşdım, hansı aydı, ildi, bilmədim.
Nadanlar dərdimə güldü, bilmədim,
Yozdular yaxşıya-yamana məni.

Nəyi qalmışdı ki, bu quru ömrün, -
Boş bir iftixarın qüruru ömrün?!
Xainin, xəbisin uğuru ömrüm
Xərclədi şübhəyə, gümana məni.

İçərim atlandı – ürəyim adda,
Qürurum tapdandı – çörəyim adda.
Daha ümid də yox, «gərəyəm» adda,
Çökdü dizlərimdə «aman»a mənim.

Qəmidi, bilmədim, məndim, bilmədim,
Dolandım şəhəri, kəndi, bilmədim.
Haçandan əyildim, endim, bilmədim,
Axır ki, çıxdılar yalana məni.

## MÜRACİƏT

*Tanrıya*

Xəlbirimiz, ələyimiz yox deyən,
Faldan özgə gərəyimiz yox deyən.

Allahımız, fələyimiz yox deyən, -
Hara dönsək, ilişirik şeytana.

Fələk bizi niyə gözdən atıbdır? –
Bəxtdən, vaxtdan, yoldan, izdən atıbdır.
Xoş qılıqdan, şirin sözdən atıbdır,
Acı-acı girişirik şeytana.

İyəşməyə kimsə tapmır bəlkə də,
Tövbəsinə kilsə tapmır bəlkə də.
Çarə qılar... Nəsə tapmır bəlkə də,
Hər addımda dirəşirik şeytana.

Ay nur üzlü bir bizə də nəzər sal,
Ürəyinə məhəbbətdən Xəzər sal.
Qəlbimizə nə xiffət, nə azar sal,
Üzə düşüb, irişirik şeytana.

Sirr açırsan, minin bağla, yüzün aç,
Bəndələrə mərhəmətin gözün aç.
Özün arıt, özün çözə, özün aç,
Dərdinizi hürüşürük şeytana.

Oyanmışıq uyğuları öldürüb,
Qayğıları, sayğıları öldürüb.
İnsan adda duyğuları öldürüb,
Gündə bir az sürüşürük şeytana.

## İNANAQ

Tor tutubdur mərhəmətin gözünü,
İnsaf, mürvət nazikindən üzülüb.
Tərs görmüşük söz yolunun üzünü,
Daha nəyə, daha kimə inanaq?

Sözümüzdə, işimizdə – canımız,
Ələk-vələk içimizdə canımız.
Susub duraq, dişimizdə canımız,
Nə caduya, nə tilsimə inanaq.

Ha gözlədik, söz çəkmədi vaxtına,
Haqqı olan yetişmədi haqqına.
Allah, bizi yaz Əlbaba baxtına,
Qapıaçan o «Sim-Simə» inanaq.

* * *

Endirin pərdələri,
Oyun bitdi, qurtardı.
Daha heç nə ummayın, -
Bu oyunun yox ardı.

Göz yaşı gözdə bitdi,
Abırda, üzdə bitdi.
Verdiyi sözdə bitdi, -
Söz yiyəsi gəbərdi.

Açıldı yelpazələr,
Əl-qol açdı tazələr.
Dəyişdi əndazələr,
Təzə hoqqa çıxardı.

* * *

Yeriyirəm, yürüyürəm,
Nə durur, nə dincəlirəm.
Uzaq günlər yorğunuyam,
Yaxın günlərdən gəlirəm.

Nələr gördüm, nələr keçdim,
Axşamını səhər keçdim.
Kənd böyükdə şəhər keçdim,
İynə-iynə gor dəlirəm.

Sısqa çayı gursanıram,
Hərbə-zorba qursanıram.
Gündə bir az korşalıram,
Əriyirəm, incəlirəm.

## BİLMƏDİM

Dəcəl küləklərin dəli əlindən
Vallahi, nə desən, gəlir əlindən.
Vasvası bir ömrün zəli əlindən
Üzülüb bir yana çıxa bilmədim.

Hardan bir iz düşə, sıxa qəlbimi,
Sarsıda, heç-puça çıxa qəlbimi.

Mən yuxa sayandan yuxa qəlbimi
Qəlbimdən yumşaq bir yuxa bilmədim.

Eh, arzum, diləyim bu viranəni
Deyin, necə geyim bu viranəni?
Tikmək istədiyim bu viranəni
Təzədən tikməyə yıxa bilmədim.

## QURUCULUQ

*«Qız qalası»nın böyründəki qədim*
*memarlıq abidəsini də sökdülər.*

Demək bu binanı da
dağıtdılar beləcə.
Daşından kəsəyinə
ağlatdılar beləcə.
Qıydılar tarixinə,
qıydılar bəzəyinə,
yolunu, yolağını
bağlatdılar beləcə.
Çökdü, dizindən çökdü,
«bina» sözündən çökdü.
Biri dedi: «Sökdülər»...
Başqa birisi dedi:
«Yəqin özündən çökdü», -
Evi yıxıb-tökdülər,
plan-filan çəkdilər.
Təzəsini tikməyə
yerə beton əkdilər.
Ötən əsrin nəslini
aldatdılar beləcə,
ağrıtdılar beləcə.

## QƏLƏMİ YERƏ QOYAQ?

*Yaşıdlarıma*

Daha yorulmuşuq da...
Nə dinək, nə danışaq?..
Üz tutaq orda-burda
köhnə dosta, tanışa.
Vərəqləyək illəri,
ataq gün-gün keçmişə,

xatirə girdabında
Yaş sürünsün yetmişə,
Yaş sürünsün səksənə.
Tanış-biliş, dost, yaxın
bir-bir qeybə çəkilsin,
Sən qalasan təkcənə...
Görək heç nə yoxuymuş,
olub-keçən yuxuymuş.
Ürəyimizdən əvvəl
gözlərimiz sıxılsın.
Ən dəcəl günlərimiz
budaqlardan yıxılsın.
Vaysınaq bizdən keçib
biz olmayan illərə,
bircə əməlimizdən
iz olmayan illərə.
Baxaq – nə Yer, nə Göy var,
Doğmadan çox, ögey var...
Eh... od üstdən keçəntək
keçdik yaşımız üstdən.
Neçə fürsət uçurtduq
hər gün başımız üstdən.
...Əlimiz, ayağımız
yerişimiz – qəribə.
Hara üz tuturuqsa,
təxribat... Müharibə...
Cəfəng fikirlərdəki...
bizi sülhə çəkəmmir,
açılır dərd süfrəsi, -
giley-güzar tükənmir.
Allahın var günündə
yollarımız – dolaşıq.
Yüz yol dəstəmaz da al,
vicdan yenə bulaşıq.
Zamanın Cənnət yolu
Cəhənnəmdən keçirmiş.
Əzabı, işgəncəsi
kimə içdən keçirmiş,
kimə gendən keçirmiş...
Olsun ki, sabahkı gün –
dünənkindən bir az xoş.
Qəlbindəsə – həmişə
Bir az payız, bir az qış.

* * *

Sabah
bütün yolların,
cığırların,
izlərin,
dərdli-dərdli
sözlərin,
yaşlı-yaşsız
gözlərin sənə axışan
günüdür.
Yoxluğunu
çıraq edib
sənə baxışan
günüdür.
Sabah
bilinəcək ki,
sən demə, bu dünyanın
ən səmimi,
ən müdrik, ən qayğıkeş,
ən sədaqətli,
ən istedadlı
yoldaşı,
əreni,
ataşı,
dostu,
qardaşı,
babası,
şairi sən imişsən!
Əlbəttə, elədir.
Amma
bəs nədən
bunu indi görürük,
ilahi?!

## TƏRƏZİ

Haqq bölgüsündə
tərəzinin
«mənim» gözündən
ağır
günah,
«sənin» gözündən
yüngül
savab yoxdur.

* * *

Qulağımı keçmişə
tutub
gələcəyi dinləmək
istədim, –
«ənənəçi»
dedilər.
Gözüm – ənənədə,
məni tərifləyəni
aradım.
Nə sözündə,
nə əməlində,
atasından, anasından
nişanə gördüm.
Doğrudanmı
bu adamın keçmişi
yoxdur?!
Onda bəs
gələcəyə nə aparır?!

## KÜSKÜNLÜK

Dirənib taleyin sərt divarına,
Dayanıb durmuşam, susub durmuşam.
Çırpıb qapısını dərd divarının
Özümdən, sözümdən küsüb durmuşam.

Ötən ilki deyil o daş, o kəsək
Elə bu quşlar da o quşlar deyil.
Dərələr, təpələr, yamaclar – təzə,
Belini əyəndə yoxuşlar deyil.

Talanıb, tükənib yol xatirələr,
Gözdə toranlıqdı, duyğuda yadlıq.
Qaçıb uzaqlaşır izimdən elə
Bir yetim qızcığaz – Firuzə adlı.

Keçərəm, bir doğma, bir tanış sima
Bir qəfil salamla ötməz yanımdan.
Bilmərəm ərk olub sarılım kimə,
Bu yorğun tənhalıq çıxsın canımdan.